*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 mart 2017-ci il № 23 (2140) Qiymәti 25 qəpik

## “Azərbaycan həm bölgədə, həm dünyada öz siyasəti ilə seçilir”

*Azərbaycanda sabitlik təmin olunur. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Azərbaycan həm bölgədə, həm dünyada öz siyasəti ilə seçilir.*

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu fikirləri Saatlıda pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində deyib.

Dövlətimizin başçısı bildirib ki, Azərbaycanda təhlükəsizlik tədbirləri təmin edilir, ictimai proseslər müsbət istiqamətdə gedir, vətəndaş həmrəyliyi möhkəmlənir, iqtisadi inkişaf, regionların inkişafı sürətlə gedir. Biz bu gün bir nümunə göstəririk - ölkəni necə idarə etmək lazımdır. Biz bu nümunəni göstəririk və əlbəttə ki, bu siyasət xalq tərəfindən də bəyənilir, dəstəklənir. Gələcək planlarımızın reallaşdırılması üçün bu, əsas amildir. Xalq-iqtidar birliyi hər bir ölkənin uğurlu inkişafını şərtləndirən əsas amildir.

"Bizim uğurlu iqtisadi siyasətimiz, regionların inkişafı və yeni təşəbbüslər, islahatlar, əminəm ki, dayanıqlı inkişafı təmin edəcək. Bu yaxınlarda bir çox sahələr üzrə strateji yol xəritələri tərtib olunub, dərc edilib. İctimaiyyət artıq bunu bilir. Hər bir sahə üzrə konkret proqramlar var və biz bu proqramlar əsasında işləyirik və işləyəcəyik", - deyə Prezident İlham Əliyev qeyd edib.

## Vətənə xidmət müqəddəs borcumuzdur



*Milli-mənəvi dəyərlərimizi yaşadan və təbliğ edən ən əziz bayramlardan biri də Novruz bayramıdır. Bu bayram birlik bayramıdır. Onun nəcib xüsusiyyətlərindən biri də insanların bir-biri ilə xoş ünsiyyət yaratmasıdır. Bayram günündə hamı bir-birinə qonaq gedir, ən xoş arzu və istəklərini bölüşürlər.*

Artıq bir neçə ildir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov başda olmaqla nazirliyin rəhbər heyəti bütün bayramlarda cəbhə xəttinə səfər edərək Vətənimizi qoruyan döyüşçülərlə görüşür. Bu ilki bayram günündə Müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətilə görüşündə də bildirdi ki, biz bütün bayramları əsgərlərlə birlikdə qeyd edirik. Belə dəyərli görüş əsgər və zabitlərimizə xoş əhval-ruhiyyə, nikbin ovqat aşılayır. Cəbhə xəttində xidmət edən əsgərlər Müdafiə naziri ilə belə görüşün onların həyatında ən əlamətdar hadisə olduğunu bildirirlər: "Cənab nazir hər birimizlə səmimi söhbət edir, bir süfrədə bizimlə duz-çörək kəsirdi. Bu görüş bizə ən xoş duyğular bəxş edir".

Ordu rəhbərliyinin belə görüşləri, bilavasitə səngərdə əsgərlərlə ünsiyyəti təqdirəlayiqdir. Çünki bir bayram günündə əsgərin də mənəvi ehtiyacını ödəmək böyük xeyirxahlıqdır. Belə olanda əsgərlər daha da ruhlanır, Vətənin keşiyində ayıq-sayıq dayanır, döyüş növbətçiliyində nümunəvi olurlar.

Bu il də Novruz bayramında Müdafiə Nazirliyinin rəhbərliyi ön xətdə yerləşən hərbi hissələrdə oldular. Düşmənlə bilavasitə üzbəüz səngərlərdə döyüş növbətçiliyini həyata keçirən şəxsi heyətlə səmimi görüşən nazir əsgərlərimizi bayram münasibətilə təbrik edib, onlara ən xoş arzularını bildirib. Nazir şəxsi heyətlə söhbətlərində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində ordu quruculuğunda həyata keçirilmiş tədbirlərdən danışaraq qeyd edib ki, dövlətin və xalqın orduya inamı böyükdür. "Bu gün hər bir Azərbaycan vətəndaşı ordumuzun, əsgərlərimizin gücünə güvənir və hər kəs yaxşı bilir ki, ötən il aprelin əvvəllərində olduğu kimi, Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti düşmənə hər an öz gücünü sübut etməyə qadirdir".

Müdafiə naziri cəbhə xəttindəki bölmələrin döyüş hazırlığı ilə dərindən maraqlanıb, hərbi qulluqçuları maraqlandıran məsələlərin həlli ilə bağlı konkret göstərişlərini verib. General-polkovnik Zakir Həsənov, ümumiyyətlə, ordunun rəhbər zabit heyəti ilə keçirilən müşavirələrdə daim bir məsələni xüsusi vurğulayır ki, cəbhə xəttində döyüş növbətçiliyi aparan şəxsi heyətin bütün qayğıları yerindəcə həll edilməlidir. "Azərbaycan əsgəri bu gün cəmiyyətimizdə böyük hörmət və ehtirama layiqdir, çünki düşmənlə bilavasitə üz-üzə mövqelərdə Vətənimizi qoruyur". Cənab nazirin qeyd etdiyi kimi, cəbhə xəttindəki bölmələrimizin şəxsi heyəti ən müqəddəs vəzifəni yerinə yetirir. Burada çətin, mürəkkəb relyef şəraitinə baxmayaraq, əsgərlərimiz Vətən borcunu sədaqətlə ödəyir. Müdafiə Nazirliyinin rəhbərliyinin tez-tez cəbhə xəttində olması əsgər və zabitlərin ruh yüksəkliyini daha da artırır.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Bir qrup yüksək rütbəli hərbi qulluqçu ehtiyata və istefaya buraxılıb

*Martın 28-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*



Ümummilli lider Heydər Əliyevin və Vətən uğrunda döyüşlərdə həlak olmuş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bir qrup yüksək rütbəli hərbi qulluqçunun ehtiyata və istefaya buraxılması ilə bağlı müvafiq sərəncamı şəxsi heyətə çatdırılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrdə uzunmüddətli qüsursuz xidmətləri, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyünün qorunub saxlanılmasında və hərbi xidmətdə xüsusi xidmətlərinə görə Müdafiə nazirinin əmri ilə hərbi qulluqçular qiymətli hədiyyə ilə mükafatlandırılıblar.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**28 mart 2017-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 130 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə, Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Bala Cəfərli, Quşçu Ayrım və Kəmərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu, Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Qaraqaşlı, Yusifcanlı, Baş Qərvənd, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Döyüş hazırlığı*

# "Torpaqlarımızı işğaldan azad edəcəyik"

*Ötən ayın son günlərində cəbhədə vəziyyət gərginləşdi. Ermənilər yenə öz xislətindən əl çəkməyib nəinki atıcı silahlardan, hətta artilleriyanın uzaq mənzilli silahlarından istifadə etdilər. Təbii ki, düşmən cavabsız qalmadı. Ön xətdə dayanan əsgərlərimiz ermənilərin təxribat-diversiya qruplarını vaxtında aşkar edərək irəliləməyə imkan vermədilər. Bu dəfə də Azərbaycan əsgəri istənilən təxribatın qarşısını almağa hazır olduğunu bir daha təsdiq etdi.*



Zabit Elnur Həsənovla görüşəndə söhbətimizin əsas mövzusu da son döyüşlər oldu. Bildirdi ki, düşmən üz-üzə dayanan mövqelərimizdə fəallaşmaq istədi, lakin igid əsgərlərimiz tərəfindən düşmənin niyyəti vaxtında aşkar olundu və yağılar itki verərək geri çəkildilər. Planı baş tutmayan ermənilər bu dəfə cəbhə boyu atəşkəsi pozaraq mövqelərimizin dərinliklərini ağır artilleriya silahları ilə vurmağa başladılar. Cəbhə xəttinin yaxınlığındakı kəndin açıq sahəsinə də bir neçə mərmi düşdü.

Göründüyü kimi, düşmən yenə ordumuza gücü çatmayanda kəndləri, mülki əhalini hədəf seçmək istəyir. Yağının belə çirkin niyyətlərini döyüşçülərimiz əvvəlcədən bilirdi. Ehtimal olunurdu ki, ermənilər yalnız ön səngərləri atəşə tutmaqla kifayətlənməyəcəklər.

Göründüyü kimi, Azərbaycan əsgəri yüksək döyüş vərdişlərinə yiyələnib. Qarşı tərəf bunu yaxşı bilir və buna görə də təxribatlarından əl çəkmək istəmir.

Süleyman Vəliyev şəxsi heyətin mənəvi-psixoloji sahəsinə cavabdeh zabitlərdəndir. O, söhbətimizdə bildirdi ki, əsgərlərin yüksək əhval-ruhiyyədə olması düşməni məqsədinə çatmağa imkan vermir. "Əsgərlərimiz yaxşı bilir ki, düşmənin yerləşdiyi ərazi Azərbaycanın əzəli torpaqlarıdı. Bunu bütün dünya da bilir ki, ermənilər güclü havadarlarının dəstəyi ilə şəhərlərimizi, qəsəbələrimizi, kəndlərimizi işğal edib. Bu torpaqları işğaldan azad etmək üçün biz hərbçilər hər an döyüşə hazırıq".

Döyüşdə qələbənin təmin edilməsində artilleriyanın da öz yeri var. Bunu biz döyüşlərdə də hiss etmişik, əsgər və zabitlərlə söhbətlərimizdən də yaxşı bilirik. Kapitan Fikrət Məmmədovla topçuların atəş mövqeyində görüşdük. Döyüşçülər burada da istehkam işlərini davam etdirir, əsas və ehtiyat atəş mövqelərini döyüşə hazır vəziyyətə gətirirdilər. Bu, həm də olduqca vacibdir. Şəxsi heyətin, silah və sursatların etibarlı qorunması üçün səngər, üstüörtülü sığınacaq etibarlı vasitədir. Əsgər xidməti istifadəsində olan silahı mükəmməl bilməklə yanaşı, müdafiənin incəliklərinə də əməl etməlidir.

Baş leytenant Paşa Paşayev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. İxtisasca artilleriyaçıdır. Hərbi xidmətinin son üç ilini burada keçirən zabit Vətənin müdafiəsində dayanmasından qürur duyduğunu deyir. Tabeliyində olan əsgərləri də bu ruhda tərbiyə edir. Döyüşçülərin başlıca məqsədi yiyələndikləri bilik və bacarıqları ilə Vətənin müdafiəsində mətinliklə dayanmaqdır. Onun tabeliyində olan hər bir heyət üzvü yüksək döyüş bacarığına malikdir.

Zabit əlavə etdi ki, onlar yuxarı komandanlığın təsdiq etdiyi plana uyğun olaraq tez-tez təlimlərdə olur və döyüş vərdişlərini təkmilləşdirirlər. Həm də heyətlərin təlimlərə cəlb olunması ona görə təqdirəlayiqdir ki, əsgərlər döyüş tapşırığını yerinə yetirərkən heç bir səhvə yol vermirlər. Əldə etdikləri yüksək peşə vərdişləri onların gələcəkdə bacarıqlı topçular olacaqlarına əsas verir.



Goranboy rayonunun Zeyvə kəndindən olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Pərviz Dilənzadə öz işini mükəmməl bilən heyət komandiridir. İki ildən artıq xidmətdə olan kiçik komandirin başlıca məqsədi tabeliyində olanlara da yüksək bilik və bacarıqlar aşılamaqdır.



Tuşlayıcı əsgər Rasim Quliyev isə ötən ilin aprel döyüşlərinin iştirakçısıdır.

- Həmin günlərdə vəziyyət olduqca gərgin keçdi, - deyir topçu əsgər. - Qulaqlarımızdan atəş səsləri getmirdi. Topların, mərmilərin zərbəsindən yer tərpənirdi. Bu il fevralın 25-də yenə də oxşar anlar yaşadıq. Çox istədik ki, hücum edək, erməni silahlılarını məhv edək və doğma torpaqlarımızdan qovub çıxaraq. Ancaq tezliklə belə bir döyüşün baş verəcəyinə ümid edirəm. Onda biz düşmənləri işğal etdikləri torpaqlarımızdan çıxaracağıq. Yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız doğma ev-eşiklərinə qayıdacaqlar.

Heyət üzvlərindən Paşa Əzimov, Habil Quliyev, Rəşid Rəşidli, Murad Tağızadə və başqaları da hərbi xidmətdə qazandıqları bilik və bacarıqlarına güvənirlər. Onların hər biri hər an döyüşə hazırdır.

**Mayor**
**Bəxtiyar ƏLİYEV**

# Əlahiddə Ümumqoşun Orduda hərbi rəhbərlərin növbəti təlim-toplantısı başa çatıb



*Əlahiddə Ümumqoşun Orduda Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində "Gənclərin çağırışaqədərki hazırlığı" fənnini tədris edən hərbi rəhbərlərin növbəti təlim-toplantısı başa çatıb.*

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, muxtar respublikanın Təhsil Nazirliyi və Əlahiddə Ümumqoşun Ordunun birgə təşkil etdiyi təlim-toplantıda əvvəlcə toplantıya cəlb edilmiş heyətin sıra hazırlığı yoxlanılıb. Fiziki hazırlıq dərsləri zamanı hərbi rəhbərlərə silahlı, silahsız və ikilikdə çalışmalar kompleksi, eləcə də sürət və güc çalışmaları əyani olaraq göstərilib.

Keçirilən dərslərdə diqqətə çatdırılıb ki, ölkəmiz müharibə şəraitində yaşayır. Ona görə də hərbi rəhbərlər şagirdlərdə hərb sənətinə maraq yaratmalı, gəncləri hərbi xidmətə yüksək səviyyədə hazırlamalıdırlar.

Təlim-toplantı çərçivəsində hərbi rəhbərlər Əlahiddə Ümumqoşun Ordunun silahlanmasında olan silah və texnikaların təyinatı, taktiki-texniki xüsusiyyətləri ilə tanış olublar. Tanışlıq zamanı müxtəlif çaplı atıcı silahlar, snayper tüfəngləri, mühəndis-istehkam qurğuları, geyim və vasitələri, tank əleyhinə vasitələr, tanklar, piyadanın döyüş maşını və digər zirehli texnikalar, hava hücumundan müdafiə, rabitə və kəşfiyyat vasitələri, pilotsuz uçuş aparatları, hərbi tibbi yardım, yük və minik maşınları, minaatanlar, müxtəlif artilleriya qurğuları və topları, yaylım atəşli reaktiv artilleriya sistemləri hərbi rəhbərlərin marağına səbəb olub. Hərbi rəhbərlərin təlim-toplantısında kütləvi qırğın silahlarından mühafizə vasitələri də əyani şəkildə göstərilib.

Hərbi rəhbərlər silah və texnika ilə yanaşı, əsgərlərin qida rasionunda nəzərdə tutulan ərzaq təminatı ilə də tanış olublar.

Təlim mərkəzində müxtəlif təyinatlı atıcı silahlardan praktiki atışlar icra edilib. Əl qumbaralarının atış çalışmaları yerinə yetirilib.





Hərbi rəhbərlərin 4 günlük təlim-toplantısı yekun tədbiri ilə başa çatıb.

Təlim-toplantının yekununda Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırığı ilə bütün tam orta məktəblərin hərbi rəhbərlərinə yeni geyim formaları və tam tədris bazası ilə təmin edilmiş ibtidai hərbi hazırlıq yeşikləri təqdim edilib.

General-leytenant Kərəm Mustafayev bir müddət əvvəl ehtiyatda olan zabitlərlə keçirilmiş hərbi yoxlama toplantısını xatırladaraq deyib ki, həmin toplantı zamanı yaxşı nəticə göstərmiş ehtiyatda olan zabitlərə növbəti hərbi rütbələr verilib. Onlardan biri də Şərur rayon Xələc kənd tam orta məktəbinin hərbi rəhbəri baş leytenant Səbuhi Heydərov olub. Tədbir zamanı kapitan hərbi rütbəsi Səbuhi Heydərova təqdim edilib.

Muxtar respublikanın tam orta məktəblərində qadın hərbi rəhbərlər də fəaliyyət göstərir. Hərbi rəhbərlərin təlim-toplantısında fəal iştirakına görə Babək rayon Naxış-nərgiz kənd tam orta məktəbinin hərbi rəhbəri sıravi Ləman Quliyevaya qiymətli hədiyyə verilib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək təlim-toplantının əhəmiyyətini qeyd edib, hərbi rəhbərlərin bilik, bacarıq və peşəkarlıqlarının artırılmasının bundan sonra da diqqət mərkəzində saxlanılacağını bildirib. Həmçinin vurğulanıb ki, bu gün tam orta məktəblərimizdə şagirdlərin vətənpərvər ruhda yetişdirilməsinə xüsusi əhəmiyyət verilir. Ona görə də hər il yüzlərlə gənc Heydər Əliyev adına Hərbi Liseydə təhsil almaq üçün müraciət edir.

**AZƏRTAC**

# Cocuq Mərcanlıda 21 evin hörgü işləri başa çatıb

Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq, Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası işləri uğurla davam etdirilir.

AZƏRTAC-ın müxbiri Cocuq Mərcanlıdan xəbər verir ki, inşaat işlərinə 30-a yaxın texnika, 100-dən çox işçi cəlb edilib. İş icraçısı Loğman Bayramovun bildirdiyinə görə, artıq 21 evdə hörgü işləri başa çatıb. Yaxın günlərdə bu evlərin dam örtükləri vurulacaq. 9 evin dəmir-beton tavası qoyulub. Hazırda digər evlərdə hörgü, məktəb binasında suvaq işləri, kəndə su xətlərinin çəkilişi aparılır. Kənddə birinci mərhələdə tikiləcək 50 evdən 20-si ikiotaqlı, 25-i üçotaqlı, 5-i isə dördotaqlı olacaq.

Cocuq Mərcanlı kəndinə ümumi uzunluğu 9 kilometr olan avtomobil yolu çəkilir. Artıq yol yatağının tikintisi başa çatdırılıb, birinci qat asfalt örtüyünün salınmasına başlanılıb. İşləri texnoloji ardıcıllığa riayət etməklə və yüksək keyfiyyətlə həyata keçirən "Azəravtoyol" ASC tərəfindən əraziyə lazımi miqdarda işçi və texnika cəlb olunub.

*Hərbçi olmaq, Vətənin keşiyində durmaq Cavidanın da yeniyetməlik çağlarından arzusu olub. Taleyinə müharibənin ağrılı-acılı günlərini yaşamaq düşüb. Atası Vaqif İbadov ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak edib, Qarabağ müharibəsi veteranıdır.*

*Gənc zabitlərimiz*

# "Vətənə, xalqa xidmət edirəm"

Zabit Rəşad İmamquliyev bildirdi ki, gənc zabitlər sırasında Cavidan İbadovun xüsusi yeri var. "Az müddət ərzində vətənpərvər, çalışqan zabit kimi tanınıb. Onda Vətənə, torpağa sonsuz məhəbbət hissinin formalaşmasında ailə həyatının rolu çox böyükdür. Atası müharibə iştirakçısı olmaqla, gənc nəslin təlim-tərbiyəsi ilə məşğuldur. Məktəblilərə çağırışaqədər hazırlıq fənnini tədris edir. Yeniyetmələrin hərbi həyata istiqamətləndirilməsində Vaqif müəllimin də rolu az deyil. Onun şagirdlərindən bir neçəsi hərbçidir, hazırda Silahlı Qüvvələrdə xidmət edirlər.

Cavidanın da hərb sənətini seçməkdə atasının xidmətləri ona örnək olub. Orta məktəb illərindən qədim hərb tariximizə, sərkərdələrin həyatına,



xalqımızın müstəqillik uğrunda mübarizəsinə böyük maraq göstərib. Azərbaycan Pedaqoji Universitetində mənalı, məzmunlu tələbəlik həyatını arxada qoyan Cavidan müqəddəs əsgəri borcunu da şərəflə yerinə yetirib. Ölkəmizin sərhədləri keşiyində dayanıb.

Hərbi xidməti başa vurduqdan sonra zabit kimi xidmət etmək, taleyini ordu həyatı ilə bağlamaq qərarına gəlib və Müdafiə Nazirliyinin Təlim və Tədris Mərkəzində zabit hazırlığı kursuna daxil olub. Kursu müvəffəqiyyətlə başa vuran Cavidana leytenant rütbəsi verilib. O deyir:

- Həmin gün mənim üçün əsl bayrama çevrildi. Arzuladığım günə qovuşdum. Azərbaycan zabiti kimi şərəfli adı daşımaq mənə də nəsib oldu. Qürur hissi keçirdim ki, zabit kimi Vətənə, xalqa xidmət edəcəm.

Bir müddətdir ki, gənc zabit "N" hərbi hissəsində xidmətə başlayıb. Xidmət etdiyi hərbi hissə şərəfli döyüş yoluna malikdir. Buna görə də qəhrəmanlıq ənənəsinin qətiyyətlə davam etdirilməsi Cavidan İbadov kimi gənc hərbçilərin qarşısında böyük məsuliyyət qoyur.

Düşmənə qarşı döyüşlərdə şücaətlər göstərən, Vətən uğrunda şəhidlik zirvəsinə ucalan oğulların xidmətləri heç vaxt unudulmur. Cavidan İbadov da tabeliyində olan şəxsi heyətə Vətən uğrunda göstərilən rəşadətlərdən, ordumuzun yüksəlişindən söhbət açır, onları qəhrəman oğulların davamçıları olmağa ruhlandırır.

Hərbi xidmət üçün müasir tələblər səviyyəsində yaradılan şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıq ifadə edən zabit bildirir ki, bizə göstərilən etimadı doğrultmaq üçün daha da məsuliyyətli və fədakar olmalıyıq. "Unutmamalıyıq ki, Mübariz, Fərid, Çingiz kimi Vətən uğrunda canlarını fəda edən oğulların davamçıları olmaqla, onların arzularını yerinə yetirməliyik."

Leytenant Cavidan İbadovun komandiri olduğu taqımın şəxsi heyəti dərs və məşğələlərdə fərqlənir. Əsgərlər Elməddin Əliyev, Rəsul Camalov, Cavid Quliyev, Hikmət Mustafayev və başqaları qısa vaxtda ordu həyatına alışıblar. Cavidan İbadov həyatda doğru yol seçib. Bütün peşələrdən şərəfli olan zabit peşəsinə yiyələnib. Vətənə, xalqa xidmət edəcəyini qarşısına məqsəd qoyub. Silahdaşları kimi, onun da ən böyük arzusu Vətənimizin ərazi bütövlüyünün təmin edilməsində iştirak etməkdir.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*Hərbi təhsil*

# Adyunktura: uğurlar, perspektivlər



*Dünyanın bütün ölkələrində dövlətin hərbi qüdrətini gücləndirmək üçün ilk növbədə bu sahənin, onun əsasında duran hərbi və əlaqəli elmlərin öyrənilməsinə, təlim-tədrisin təşkilinə və tədrisin səviyyəsinin zamanın tələbləri ilə uzlaşmasına xüsusi əhəmiyyət verilir, yüksək ixtisaslı hərbi mütəxəssislərin, ölkənin mövcud hərbi elmi və elmi-pedaqoji kadrlarının potensialından geniş istifadə edilir. Təbii ki, bu cür potensiala malik kadrların hazırlanması da zəruridir.*

Azərbaycan Respublikası Silahlı Qüvvələrində də hərbi elmi və elmi-pedaqoji kadrların hazırlanmasına zərurəti nəzərə alan Azərbaycan Respublikasının Müdafiə nazirinin əmri ilə 2014-cü ilin yanvarında Silahlı Qüvvələrin Hərbi




Akademiyasında Adyunktura və elm şöbəsi yaradılmışdır. Onun fəaliyyətini tənzimləyən rəhbər sənəd - "Azərbaycan Respublikası Silahlı Qüvvələrində elmi və elmi-pedaqoji kadrların hazırlanması haqqında təlimat" həmin ilin fevralında təsdiq edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə Silahlı Qüvvələrin Hərbi Akademiyası "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və elmi təşkilatların siyahısı"na salınmış, "73 - Milli təhlükəsizlik və hərbi elmlər" elm sahəsi "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların təsnifatı"na daxil edilmişdir.

Fundamental elmi əsaslara söykənmədən, beynəlxalq təcrübədən yararlanmadan, müxtəlif səviyyəli əməkdaşlıq əlaqələri qurmadan ölkədə yüksək ixtisaslı hərbi elmi və elmi-pedaqoji kadrların hazırlanmasına, bu istiqamətin inkişafına nail olmaq mümkün deyil. Təşkilatlanma ilə bərabər, Adyunktura və elm şöbəsi həm ölkə daxilində, həm də beynəlxalq miqyasda əməkdaşlıq əlaqələri yaratmağa başladı. Bu istiqamətdə görülən tədbirlər Akademiya rəhbərliyinin diqqət mərkəzindədir və tədbirlərin miqyası durmadan genişlənir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası ilə AMEA, AMEA-nın İdarəetmə Sistemləri, Radiasiya Problemləri İnstitutları, Milli Azərbaycan Tarixi Muzeyi, eyni zamanda, Azərbaycan Memarlıq və İnşaat, Azərbaycan Texniki, ADA Universitetləri, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Yüksək Texnologiyalar üzrə Tədqiqat Mərkəzi və digər müəssisələr arasında elm və təhsil sahəsində əməkdaşlığa dair memorandumlar imzalanmışdır.

2016-cı ilin martında Adyunktura və elm şöbəsinin əməkdaşları Bolqarıstan hərbi magistr və fəlsəfə doktorluğu təcrübəsini öyrənmək üçün Bolqarıstanın N.G.Rakovski adına Müdafiə İnstitutunda olmuşlar. Daha sonra, DİP proqramı çərçivəsində razılığa gəlmək və Müdafiə nazirinin müvafiq əmrinə əsasən, Adyunktura və elm şöbəsinin əməkdaşları Çexiya hərbi magistr və fəlsəfə doktorluğu təcrübəsini öyrənmək üçün 2016-cı ilin aprelində Çexiya Müdafiə Universitetinə ezam edilmişlər. Əməkdaşlarımız dost ölkələrin sözügedən sahədə təcrübəsi ilə yaxından tanış olmuşlar.

Adyunktura və elm şöbəsinin əməkdaşları İsveç hərbi magistr və fəlsəfə doktorluğu təcrübəsini də öyrənmişlər. Onlar İsveç Müdafiə Universitetinə ezam edilmiş, isveçrəli həmkarlarının bu sahədəki iş təcrübəsini öyrənmişlər.

Silahlı Qüvvələrin Hərbi Akademiyası telekörpü vasitəsilə beynəlxalq elmi konfranslara qatılır, birgə beynəlxalq elmi konfrans keçirir və bu işdə fəal iştirak edir. Bolqarıstan N.G.Rakovski adına Müdafiə İnstitutunda "Təhlükəsizlik və Müdafiəyə çağırışlar" mövzusunda hərbi beynəlxalq konfransa telekörpü vasitəsilə qoşularaq iştirak edən (may 2016-cı il) Hərbi Akademiya, Polşa Respublikasının Varşava Hərbi Tədqiqatlar Universitetinin "Beynəlxalq təhlükəsizlik və hərbi tədqiqatlar İSMS 2016" mövzusunda telekörpü vasitəsilə birgə beynəlxalq elmi konfrans keçirmişdir (oktyabr 2016-cı il).

Adyunktura və elm şöbəsi ötən qısa müddətdə bir sıra elmi tədbirlər - konfrans və seminarlar keçirmişdir. Bu tədbirlərə ölkənin aparıcı alimləri, mütəxəssisləri, peşəkar hərbçiləri, aidiyyəti qurumların nümayəndələri dəvət edilmişlər. Konfrans və seminarlar səmərəli keçmişdir. "Azərbaycan Respublikasında idarəetmə sistemlərinin təkamülü və inkişaf perspektivləri" mövzusunda elmi seminarda idarəetmə sistemləri üzrə tanınmış mütəxəssis, akademik Telman Əliyev, "Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun elmi fəaliyyəti və Xəzər dənizi sahəsində aparılan elmi tədqiqatlar" mövzusunda elmi seminarda akademik Ramiz Məmmədov, "Azərbaycan Respublikasının inkişafının yeni mərhələsində: varislik, novatorluq və dinamizm" mövzusuna həsr edilmiş seminarda professor Elman Nəsirov çıxış etmişlər.

"Hərb elminin inkişaf perspektivləri" mövzusunda I Respublika elmi-praktik konfransında Müdafiə naziri general-polkovnik Zakir Həsənovun, müxtəlif dövlət orqanlarının rəhbərləri də daxil olmaqla 300-dən artıq nümayəndənin iştirak etdiyi konfransda Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyev "Hərb elmi və hərbi təhsil: inkişaf və perspektivlər" mövzusunda çıxış etdi. Konfrans işini dörd bölmədə davam etdirdi. Bölmələr aşağıdakı istiqamətlər üzrə oldu: hərbi-nəzəri elmlər bölməsi, hərbi-texniki elmlər bölməsi, milli təhlükəsizlik və hərbi-humanitar elmlər bölməsi və hərbi təbabət bölməsi. Bölmələrdə hərb elminin inkişaf perspektivlərinin müxtəlif aktual problemlərinə həsr edilmiş 80-nə yaxın məruzə və çıxış dinlənildi, səmərəli müzakirələr aparıldı.

27 aprel 2016-cı il tarixində Hərbi Akademiyada "Hərb elminin aktual problemləri" mövzusunda elmi-praktik konfransda ölkənin 20-dən artıq nazirlik, komitə, ali təhsil müəssisəsi, idarə və elm mərkəzlərindən 150 nəfərədək nümayəndə iştirak etdi. Hərb elminin aktual problemləri, o cümlədən hərbi elmi və elmi-pedaqoji kadr hazırlığı məsələləri bir daha ön plana çəkildi.



Konfransın hər bir bölməsində hərb elminin müxtəlif aktual məsələlərinə həsr edilmiş məruzələr dinlənilmişdir. Ümumiyyətlə, konfrans maraqlı və geniş müzakirələr şəraitində keçmişdir.

Azərbaycan Respublikası Müdafiə nazirinin əmrinə əsasən, hərb tarixinin öyrənilməsi üzrə Hərbi Akademiya qarşısında yeni vəzifələr müəyyənləşdirilmişdir. Həmin vəzifələrin yerinə yetirilməsi üçün Adyunktura və elm şöbəsinin ştat strukturuna əlavələr olmuş, Azərbaycan hərb tarixi sahəsində elmi araşdırmalar aparmaq üçün Adyunktura və elm şöbəsinə alimlər cəlb edilmişdir.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev irsində hərb tarixi" mövzusunda keçirilən elmi konfransda da maraqlı çıxışlar oldu, fikir mübadiləsi aparıldı. Plenar iclasda 40 nəfərdən artıq alim, hərbçi iştirak etdi.

Adyunktura və elm şöbəsinin başlıca fəaliyyət istiqaməti hərbi elmi və hərbi-pedaqoji kadrların hazırlanmasıdır. Adyunkturaya ilk qəbul təsis edildiyi 2014-cü ilin dekabrında Nazirlər Kabinetinin təsdiq etdiyi plana əsasən keçirilmişdir.

Adyunkt və dissertantlara ixtisas fənlərindən, xarici dildən, bu ildən etibarən isə onlara elmi tədqiqatın nəzəri-metodoloji əsaslarından, tədqiqat metod və prinsiplərindən, ümumiyyətlə, tədqiqat texnologiyasından mühazirələr oxunur, seminar dərsləri keçilir. Şöbə dissertasiyaların hazırlanmasına nəzarət qaydasında onların hissə-hissə və ya ilkin tam variantda müzakirələrini keçirmək üçün seminarlar təşkil edir. Bu həm də gənc tədqiqatçıları dissertasiyanın müzakirə və müdafiə proses və proseduruna alışdırmaq məqsədi daşıyır.

Aparılan tədqiqatların nəticələrinə aid hazırlanan məqalələr həm forma, həm də məzmun baxımından ciddi ekspertizadan keçirilir və Akademiyanın sahə üzrə ixtisaslaşmaqda olan jurnallarında - "Hərbi icmal" elmi əsərlər toplusu və "Milli təhlükəsizlik və hərbi elmlər" elmi-praktik jurnalında çap olunur.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası və Hərbi Akademiyanın Adyunktura və elm şöbəsi təcrübəsini artırır, öz fəaliyyətində hərbi və elmi ictimaiyyətin daha geniş təbəqələrini əhatə edir. Şöbə yarandığı vaxtdan ötən üç il ərzində kifayət qədər məhsuldar fəaliyyət göstərib.

**Sədi NURİYEV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyası Adyunktura və elm şöbəsinin professor-məsləhətçisi, filologiya elmləri doktoru**

*31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür*

# Erməni amansızlığının acı nəticələri

*Həmişə güclü havadarlarına arxalanan ermənilər xalqımıza qarşı soyqırımı və qırğınlar törətmişlər. XX əsrin əvvəllərində - 1905-ci ildə, həmçinin, 1918-ci ildə mart soyqırımı, əsrin sonunda - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımı. Tarixin yaddaşına həkk olunmuş bu hadisələr erməni vəhşiliyini göstərən danılmaz nümunələrdir.*

Erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan soyqırımı və təcavüz siyasətinin iki yüz ildən çox tarixi var. Bu siyasətin məqsədi azərbaycanlıları öz dədə-baba torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduqları "Böyük Ermənistan" dövləti yaratmaqdır...

Torpaqlarımıza göz dikmiş erməni işğalçılarının soyqırımı siyasəti bu gün yenə də amansızlıqla davam edir. Xalqımız yenə də erməni vəhşiliyindən, erməni vandalizmindən əziyyət çəkir. Bu günə qədər minlərlə insan erməni soyqırımının qurbanı olub.



Son iki əsrdə Azərbaycan xalqının rastlaşdığı faciələrdə, ağır sınaqlarda, qanlı hadisələrdə ya birbaşa, ya da dolayısı ilə erməni qaniçənlərinin, erməni vandalizminin izi var. Erməni siyasətçiləri tərəfindən düşünülmüş, planlaşdırılmış şəkildə istiqamətləndirilən daşnaklar qonşu xalqların torpaqlarını ələ keçirmək üçün yaranmış tarixi şərait və imkandan bacarıqla yararlanmağa çalışmışlar. Və həmişə də gizli məqsədlərinə nail olmuşlar.

Xalqımıza qarşı törədilən soyqırımı faciələrinə siyasi qiymət vermək məqsədilə ümummilli liderimiz, böyük dövlət xadimi Heydər Əliyev 26 mart 1998-ci il tarixdə "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzaladı. Həmin fərmanla 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi tarixə həkk olundu. Böyük əhəmiyyəti olan bu sənəddə Azərbaycan XIX əsrdə zorakılıqla parçalandıqdan sonra azərbaycanlılara qarşı törədilmiş, bəşər tarixində görünməmiş vəhşiliklərlə həyata keçirilmiş kütləvi qırğınların - soyqırımların tariximizdə ilk dəfə olaraq rəsmən adı çəkilir. 1905-1907, 1918-1920, 1948-1953 və 1988-1989-cu illərdə erməni millətçi, şovinist dairələri və onları dəstəkləyən böyük dövlətlərin mürtəce qüvvələri tərəfindən bütün Cənubi Qafqaz miqyasında azərbaycanlı əhaliyə qarşı aparılmış düşmənçilik siyasətinin kökləri geniş şəkildə açılır.

XIX əsrin əvvəllərində çar Rusiyası və İran arasında Azərbaycan ərazilərinin bölüşdürülməsinə dair 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri imzalandıqdan sonra Rusiya qədim Azərbaycan torpaqlarında bufer zona yaratmaq üçün erməni dövlətini yaratmaq planını işə salmışdır. Hələ 300 il əvvəl gələcək imperiyanın konturları barədə fikirləşən rus imperatoru Pyotr cənuba göndərdiyi qasidlərə tapşırmışdı: "Onları (erməniləri) toplayıb bizim torpaqlara gətirməyə çalışmaq lazımdır ki, Rusiyanın istinadgahı olsun".

Bu məqsədlə İran və Türkiyə ərazisində yaşayan 300 minə qədər erməni 19-cu əsrin birinci yarısında Azərbaycana köçürülmüş və İrəvan (indiki Yerevan), Dağlıq Qarabağ, Naxçıvan, Zəngəzur, Ordubad, Dərələyəz, Vedibasar və digər ərazilərdə yerləşdirilmişdir.

Lakin ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinə baxmayaraq, azərbaycanlılar bu ərazilərdə sayca ermənilərdən böyük üstünlük təşkil edirdilər. Bir müddətdən sonra azərbaycanlıların bu ərazilərdən zorla çıxarılmağına başlandı. İndiki Ermənistan və Dağlıq Qarabağ ərazilərindən azərbaycanlıların kütləvi şəkildə çıxarılması, dinc əhaliyə qarşı zorakılıq və vəhşiliklər XX əsrin əvvəllərində, xüsusilə 1905-1907-ci illərdə geniş vüsət almışdır. Azərbaycanın Zəngəzur, İrəvan, Naxçıvan, Qazax və Qarabağ əyalətlərində yüzlərlə kənd yandırılmış, əhali uşaqdan-böyüyə kimi amansızcasına qətlə yetirilmişdir. Ümumiyyətlə, XX əsrin birinci yarısında Zaqafqaziyada baş vermiş iki qırğın zamanı (1905-1907, 1918-1920) 2 milyona yaxın azərbaycanlı ermənilər tərəfindən amansızcasına qətlə yetirilmiş, öz evindən, dədə-baba ocaqlarından zorla qovulmuşdur.

1918-ci ildə mart qırğını zamanı Bakının təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 azərbaycanlı qadının meyiti tapılmışdır. Gənc qadınların diri-diri divara mıxlanması, ermənilərin hücumundan gizlənməyə çalışan 2 min nəfərin yerləşdiyi şəhər xəstəxanasının yandırılması da bu dəhşətli hadisələrin sırasındadır. 1918-ci il mart-aprel aylarında Şamaxıda 8 minə yaxın dinc sakin amansızcasına qətlə yetirilmişdir. Şamaxı Cümə məscidi də daxil olmaqla əksər mədəniyyət abidələri yandırılmış, uçurulmuş və yerlə-yeksan edilmişdir.

Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi ermənilər tərəfindən tamamilə yandırılmış və əhalisi məhv edilmişdir. 1918-ci il aprelin 29-da Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq son nəfərlərinədək məhv edilmişdir. Erməni silahlı dəstələri Naxçıvan qəzasının bir neçə kəndini yandırmış, Zəngəzur qəzasında 115 azərbaycanlı kəndini məhv etmişdir. Bu qanlı hadisələrdə 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüşdür.

1988-ci ildə yenidən baş qaldıran erməni separatizmi, ermənilərin Dağlıq Qarabağda apardığı işğalçılıq və etnik təmizləmə siyasəti nəticəsində azərbaycanlılar məhv edilmiş, amansızcasına qətlə yetirilmişdir. Ermənilərin hücumları nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal edilmiş, 18 mindən çox azərbaycanlı həlak olmuş, 20 mindən çoxu yaralanmış, 4 mindən çox azərbaycanlı əsir və itkin düşmüş, girov götürülmüşdür.

Baş vermiş qanlı hadisələr nəticəsində təkcə XX əsrdə 2 milyondan çox azərbaycanlı bu və ya digər şəkildə şovinist erməni dairələrinin və onların havadarlarının qanlı terror və soyqırımı siyasətinin qurbanı olmuşlar. Ürək ağrıdan fakt odur ki, bu gün Azərbaycanda erməni millətçilərinin zülmündən bu və ya başqa formada zərər çəkməyən ailə tapmaq çox çətindir. Xalqımız erməni soyqırımı qurbanlarının xatirələrini həmişə əziz tutur, hörmətlə anırlar. İnanırıq ki, vaxt gələcək ermənilər xalqımıza qarşı törətdikləri soyqırımı hadisələrinə görə tarix qarşısında cavab verməli olacaqlar.

**Hazırladı:**
**Vahid MƏHƏRRƏMOV**

## Azərbaycanlılar zaman-zaman soyqırıma məruz qalıblar

1998-ci ildən 31 mart Azərbaycan Respublikasında dövlət səviyyəsində Azərbaycanlıların soyqırımı günü kimi anılır. Bu soyqırım azərbaycanlıların kütləvi surətdə qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli səhifələrindəndir. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub. Minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə məhv edilib. Ermənilər milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıdıblar. Soyqırımı əsasən Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilib. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilib.

Əsrin əvvəllərində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərində və digər bölgələrdə soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulurdu. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, onlara qarşı repressiyalar həyata keçirilirdi. Hətta azərbaycanlıların kəndlərinin tarixi adları dəyişdirilirdi.

1918-ci ilin mart-aprel aylarında Şamaxıda 8 minə qədər dinc sakin qətlə yetirilmişdi. Şamaxı Cümə məscidi də daxil olmaqla əksər mədəniyyət abidələri dağıdılmışdı. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin mənzərəsini yaratmaq imkanı əldə edildi. Uzun illər gizli saxlanılan həqiqətlər açıldı, təhrif edilmiş hadisələr əsl qiymətini aldı.

Martın 31-i Azərbaycanın tarixində unudulmaz bir gündür. Günlər var ki, sevincinin böyüklüyü ilə, günlər də var ki, fəlakət və qüssənin əzəməti ilə unudulmur. 31 mart məhz ikincilərdəndir. Bu yazdıqlarımız erməni faşizminin yalnız bir əsrdə törətdiklərinin qısa icmalıdır...

**Könül CƏFƏRZADƏ**

## O günə az qalıb!..

*Elə hadisələr var ki, unudulmur. Unudulmayacaq. Sevinc də, kədər də. Unudulmamalıdır ki, tariximiz həmişə yaşadılsın. Olmuşlar yaşanılacaq illərə aydınlıq gətirsin. Ötən əsrin əvvəllərində yaşanılanlar da unudulmayacaq...*

Tarixi Azərbaycan torpaqlarında dövlət quran, ərazilərini Azərbaycanın əraziləri hesabına genişləndirməyə istəyən Ermənistan görünməmiş vəhşiliklər edirdi. Alman faşizmi Belarusun Xatın kəndində törətdiyi vəhşiliyi, Ermənistan 20-ci illərdə Azərbaycanda törətmişdi. Yüzlərlə körpə uşaq, qadın, qoca diri-diri gömülmüşdü, öz evində yandırılmışdı, iri diametrli borulara salınıb torpağa basdırılmışdı...

Ləzgilərlə azərbaycanlıları qarşı-qarşıya qoymaq, müsəlmanı müsəlmana düşmən etmək, bu düşmənçilik zəminində onları bir-birinə qırdırmaq istəyən ermənilərin niyyəti baş tutmamışdı. Ermənilərin təhrikinə uymayanların neçəsi gülələnsə də, ləzgilərlə azərbaycanlılar bir-birinə düşmən kəsilmədi. Quba hadisələri təsdiqləyir ki, onlar erməni qırğınlarına qarşı birgə vuruşublar.

Abdulla Qurbaninin "Cingiz dastanı" kitabından oxuduğum bir hadisəni xatırlayıram:

Daşnaklar ləzgi Məhəmmədə və şiələrin ağsaqqalı Məşədi Mirsadığa tüfəng verirlər, "Kim sağ qalsa, onu azad edəcəyik" - deyirlər. Onların heç biri erməni silahını əlinə almaq istəmir. Qundaqla başlarına vururlar. İkisi də tüfəngi qaldırıb bir-birilərini nişan alırlar. Bir an içində hərəsi bir daşnakı öldürür. Sağ qalanlar onların niyyətinin davamçısı olur...

O illər 31 mart soyqırımı günü kimi tarixləşdi.

20-ci illərdə belə ağrılar yaşayan xalqımız əsrin sonlarında dövlətçiliyini bərpa etdi. O illərin yaraları qaysaqlasa da, unudulmur...

On illər sonra ermənilər yenidən xalqımıza qarşı soyqırımı törətdilər. Bağanıs-Ayrımda, Meşəlidə evləri oda qaladılar, insanları evlərində yandırdılar. Xocalıda görünməmiş vəhşiliklər törətdilər. Həmin vaxtlar Azərbaycanda olan xarici jurnalistlər bunu əsl soyqırımı adlandırdı.

31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür.

Müstəqil Azərbaycanın vətəndaşı olaraq bu günü mən də heç zaman unutmaram. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bir kəlamı bütün vətəndaşlarımız kimi mənim də qürurumu həmişə kükrədir: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır." Belə bir dövlətin vətəndaşı olmağımla fəxr edirəm. Fəxr edirəm ki, belə bir ordumuz vardır.

Torpaqlarımızın işğaldan azad edilməsi hamı kimi mənim də ən başlıca istəyimdir. Döyüşlərdə şəhid olanlarımızın da, əsrin əvvəllərində öldürülən günahsızların da ruhu onda rahatlıq tapacaq. Bu rahatlığı Azərbaycan əsgəri təmin edəcək. O günə az qalıb!..

**Hüsniyyə İDRİSOVA**

# Bakıda mart qırğınları

*XX əsr Azərbaycan xalqının taleyində bir sıra hadisələr baxımından, yəqin ki, ən əhəmiyyətli zaman kəsiyidir. Bu hadisələrin ən yüksək zirvəsi, sözsüz ki, 1918-ci il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsidir. Sonrakı mühüm tarixi hadisələr - sentyabrın 15-də Bakının birləşmiş Türk-Azərbaycan hərbi qüvvələri tərəfindən azad edilməsi və Azərbaycan hökumətinin Bakıya köçməsi, dekabrın 7-də Azərbaycan Parlamentinin yaranması - bütün Şərqdə ilk demokratik quruluşun və ilk milli dövlətçiliyin - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının əsasını qoyub.*



Lakin 1918-ci ilin əlamətdar hadisələrindən əvvəl bütün Azərbaycan xalqı üçün ümumi faciəyə çevrilmiş, hətta onun mövcudluğunu belə şübhə altında qoymuş hadisələr baş vermişdir. Bakıda və Şamaxıda 1918-ci ilin mart qırğınları bu sıradan əsas yer tutur. Mart günləri ərzində bu şəhərlərin və ətraf kəndlərinin dinc azərbaycanlı əhalisi bolşevik-daşnak hərbi qüvvələri tərəfindən görünməmiş dəhşətli cəza aksiyalarına - talan və qırğınlara məruz qaldı.

Bakı və Şamaxıdan sonra müsəlman qırğınları Göyçay, Ərəş, Cavad, Nuxa, Quba qəzalarını və Quba şəhərini, Gəncə şəhərinin ətraf kəndlərini, Lənkəran, Zəngəzur qəzalarını, həmçinin Qarabağın azərbaycanlılar yaşayan bütün yaşayış məntəqələrini əhatə etdi.

XIX əsrin sonlarından "Hnçak" və "Daşnaksütyun" erməni partiyalarının meydana gəlməsi ilə ermənilərin öz dövlətinin yaradılması uğrunda fəal siyasi-silahlı fəaliyyəti başlayır. 1905-1907-ci illərdə ermənilərin azərbaycanlılara qarşı ilk və irimiqyaslı silahlı çıxışları baş verir və bu, hər iki xalqın qanlı qırğını ilə nəticələnir. Ən ümumi hesablamalara görə, 1905-1906-cı illər qarşıdurmalarında Bakı, İrəvan və Yelizavetpol quberniyalarında 158 Azərbaycan kəndi dağıdılmış, müxtəlif mənbələrə görə 3-10 minə qədər insan həlak olmuşdu.

1917-ci ilin əvvəlindən 1918-ci ilin martınadək ermənilər təkcə İrəvan quberniyasında 199 Azərbaycan kəndini yer üzündən silirlər. Bu cəza əməliyyatı "Daşnaksütyun"un həmin torpaqların azərbaycanlılardan təmizlənməsi və sonradan Zaqafqaziya ərazisində erməni dövlətçiliyinin mərkəzinə çevrilməsi üzrə planının tərkib hissəsi idi. Məhz həmin dövrdə gələcək Ermənistan dövlətinin bünövrəsi qoyulur.

Martın əvvəlində Bakı və Yelizavetpol (Gəncə) quberniyalarında hakimiyyət Azərbaycan ərazisində müsəlman əhalisini birləşdirməyi bacarmış və cəmiyyətin əsas siyasi qüvvəsinə çevrilmiş "Müsavat" partiyasının əlində idi. Lakin təkbaşına hakimiyyəti ələ keçirməyə çalışan aparıcı siyasi qüvvələrin münasibətlərinin kəskinləşməsi səbəbindən Bakı şəhərinin özündə vəziyyət daha mürəkkəb idi. 1917-ci ilin noyabrında, Rusiyada bolşevik çevrilişindən dərhal sonra, S.Şaumyanın başçılıq etdiyi, yalnız Leninin Xalq Komissarları Sovetinə tabe olan Bakı Soveti özünü şəhərdə yeganə hakimiyyət elan etmişdi. Bakıdakı digər siyasi qüvvələr, xüsusilə "Müsavat" partiyası və şəhərin yerli hakimiyyəti - Fətəli Xan Xoyskinin rəhbərlik etdiyi və çoxmillətli Bakı cəmiyyətinin sağ qolunun təmsil olunduğu Bakı Duması bu qərara qarşı çıxırdılar. Bolşevik Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetində də ermənilər hakim mövqelər tuturdular. Son nəticədə, Azərbaycan milli qüvvələrinin nəyin bahasına olursa-olsun, siyasi meydandan çıxarılması məqsədi "Daşnaksütyun" başda olmaqla, millətçi erməni qruplarını bir araya gətirir.

1918-ci ilin fevral və mart aylarının əvvəllərində keçmiş Rusiya ordusunun generalları İvan Baqramyan və Akop Baqratuni, həmçinin "Daşnaksütyun" partiyasının yaradıcılarından biri Stepan Zoryan Bakıya gəlirlər. Cəbhədən qayıdan erməni əsgərlərini Bakıda saxlamağa və hazırlanan silahlı vuruşlarda onlardan istifadə etməyə çalışan erməni Milli Şurası 1918-ci ilin martın əvvəlində onlara müraciət edir. Eyni zamanda Bakı Sovetinin Qızıl Ordusunun formalaşdırılması işi gedirdi. Ordu sıralarına çağırışla Avakyan məşğul olurdu və nəticələr kifayət qədər səciyyəvi idi: "Qırmızı qvardiya" adı altında yaradılmış 10-12 minlik ordunun 70 faizini ermənilər təşkil edirdi. Qızıl Ordunun qərargah rəisi çar ordusunun polkovniki, daşnak birləşmələrinin komandanı və "Daşnaksütyun" partiyasının üzvü Z.Avetisov, briqada və birləşmiş dəstələrin komandirləri - çar ordusunun polkovniki Kazarov, türk əhalisinə qarşı öz vəhşilikləri ilə məşhur olan Amazasp və digərləri idi. Milyonçu Mantaşevin və digər iri erməni neft sənayeçilərinin zavodları, habelə Bakıdakı erməni kilsəsinin zirzəmiləri ermənilərin mərkəzi silah anbarına çevrilmişdi.

Beləliklə, bolşeviklər və daşnaklar Bakıda hərbi-siyasi ittifaq bağlayır və bütün gücləri "Müsavat" başda olmaqla Azərbaycan milli hərəkatına və bütün müsəlman əhalisinə qarşı yönəldirlər.

Həmin vaxt müsəlmanların yeganə hərbi birləşməsi Lənkəranda könüllülərdən təşkil edilmiş silahlı dəstə idi və bolşevik rəhbərləri yaranmış ilk fürsətdən istifadə edərək, birinci zərbəni bu dəstəyə yönəldirlər. 1918-ci il martın 9-da general Talışinskinin başçılıq etdiyi dəstənin qərargahı Tiflisdən Bakıya gəlir və Şaumyanın göstərişi ilə Bakı Soveti adından birbaşa vağzalda həbs edilir.

Getdikcə şəhərin müxtəlif millətlərdən ibarət olan sakinləri arasında qarşıdurma təhlükəsi ilə bağlı gərginlik artır. Azərbaycanlılar ermənilərin kütləvi surətdə şəhərin müsəlman hissəsindən erməni hissəsinə köçdüyünü, "Ermənikənd" adlanan məhəllələrdə ermənilər tərəfindən səngərlər qazıldığını müşahidə edir, ermənilərin "1905-ci ili təkrarlamaq, yəni müsəlman qırğınlarını başlamaq" niyyətləri və "ermənilərin müsəlmanlara qarşı çıxışlara hazırlaşdıqları" barədə şəhərdə gəzən şayiələri eşidirdilər. Cəmiyyətdə hökm sürən qorxu və gərginliyə son qoymaq üçün müsəlman, erməni, rus və yəhudi əhalisinin ictimai və dini xadimləri danışıqlar aparır, məscidlərdə, kilsələrdə və sinaqoqlarda ümumi dua etmə mərasimləri keçirir, əhalini sülhə və əmin-amanlığa səsləyirdilər. Təbii ki, bolşeviklər və erməni daşnakları belə tədbirlərdə iştirak etmirdi.

Martın 27-də müsəlman diviziyasının zabit və əsgərlərindən ibarət kiçik bir dəstə öz xidmət yoldaşları, müsəlman diviziyasının zabiti - Azərbaycanın tanınmış milyonçusu və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin faciəli şəkildə həlak olmuş oğlu Məhəmmədin dəfnində iştirak etmək üçün "Evelina" gəmisində Lənkərandan Bakıya gəlir. Dəfndən sonra martın 29-da Lənkərana geri qayıtmağa hazırlaşan dəstə bolşeviklər tərəfindən saxlanılır və tərksilah edilir. Bu dəfə təxribat baş tutur. 48 nəfərdən ibarət bu dəstənin tərksilah edilməsi Bakı və ətraf kəndlərin müsəlman əhalisinin qəzəbinə səbəb olur. 1918-ci il martın 30-da şəhərin müxtəlif hissələrində azərbaycanlıların qeyri-mütəşəkkil etiraz mitinqləri başlanır. Mitinq iştirakçıları Bakıda erməni hərbi birləşmələrinin tərksilah olunmasını tələb edirlər. Azərbaycanın milli elitasının şəhərdə gərginliyin daha da dərinləşməsinin qarşısını almaq üçün göstərdikləri bütün cəhdlər təsirsiz qalır.

Şəhərin mərkəzi və istisnasız olaraq bütün müsəlman məhəllələri çoxminli bolşevik-erməni birləşmələrinin silahlı hücumuna və Xəzər donanmasının sahilə gətirilmiş gəmilərindən fasiləsiz top atəşinə məruz qalır. 1918-ci il martın 31-də azərbaycanlı əhalinin nümayəndələri köməksiz müsəlmanların qırğınına son qoyulması xahişi ilə Bakı Sovetinə, şəxsən Şaumyana müraciət edirlər.

Qeyd edilməlidir ki, mart günlərində Bakının istisnasız olaraq bütün azərbaycanlı əhalisi - kübar zümrələrdən tutmuş sadə adamlara qədər bütün təbəqələr erməni zorakılıqlarının və talanlarının qurbanlarına çevrilmişdi. Qırğınların ilk saatlarında erməni əsgərləri şəhərin küçələrində bütün müsəlmanları qarət edir və bir çox hallarda qətlə yetirirdilər. Həmin günlər şəhərə gəlmiş ətraf kəndlərin sakinlərindən itkin düşənlər, işdən qayıtmayanlar, evə geri dönməyənlər çox olurdu. Bakının müsəlman əhalisinə qarşı silahlı çıxışlar şəhərin müxtəlif hissələrində - həm mərkəzi məhəllələrdə, həm də kasıb və imkansız təbəqələrdən olan sakinlərin məskunlaşdığı "Məmmədli", "Kərpicxana", "Kanitapinskaya" və başqa ərazilərdə başlanmışdı. Bu isə qanlı mart hadisələrinin guya bolşeviklər tərəfindən idarə olunan rus əsgər və matrosları tərəfindən törədildiyi barədə ermənilərin yaydığı şayiələri, eləcə də silahlı toqquşmaların müsavatçılar tərəfindən törədildiyi barədə bolşeviklərin iddialarını təkzib edirdi.

Ermənilərin xəyanətkar hücumu ilə qarşılaşmış şəhərin müsəlman əhalisi əvvəlcə silahlı quldur dəstələrinin əsas hədəfinin gənc kişilər - azərbaycanlılar olacağını düşünmüş, qoca, qadın və uşaqlara toxunulmayacağına ümid edib. Lakin qırğınların elə ilk günü qətlə yetirilənlərin arasında çoxlu sayda qadın, uşaq və yaşlı kişilərin olması erməni-bolşevik qüvvələrinin şəhərin azərbaycanlı əhalisini, cinsinə və yaşına baxmadan, kütləvi surətdə qırmaq niyyətini bir daha sübut edir.

Zərərçəkənlərin çoxsaylı ifadələrindən sübut olunur ki, müsəlmanların əsir alınması silahlı erməni quldur dəstələri tərəfindən zorla həyata keçirilib, təhqirlərlə, hədə-qorxu, bir çox hallarda isə qətllərlə müşayiət olunub. Erməni əsgərləri müsəlman qadınların çadralarını cırır, onları hörükləri ilə bir-birinə bağlayır və başaçıq, ayaqyalın şəhərin küçələrində gəzdirərək yolboyu süngülərlə döyür, əsirlərin saxlandıqları yerlərə qovurdular. Burada əsir qadınların gözləri qarşısında baş vermiş qətllərdən dəhşətə gələrək ölməsi, körpələri qucaqlarında keçinən anaların dəli olması, azyaşlı uşaqların acından, qorxudan və susuzluqdan ölməsi və s. hallar baş verirdi.

Talan edilmiş əmlak erməni milyonçuları və sənayeçilərinin əvvəlcədən hazırlanmış anbarlarına yığılırdı. 1918-ci ilin faciəli mart günlərində şəhərin müsəlman əhalisinə - iri sənayeçilərə, zavod, liman, neft mədənləri sahibkarlarından başlayaraq çoxsaylı mülki, sosial və ticarət obyektlərinin: evlər, idarə, mehmanxana, məktəb, restoran, bərbərxana, emalatxana, mağaza, anbar, dükan, tövlə və s. sahiblərinə vurulan maddi ziyanın miqyası və dəyəri yüz milyonlarla ölçülürdü.

Bakıda mart faciələrinin təşkilində erməni Milli Şurasının və "Daşnaksütyun" partiyasının, erməni ziyalı və kübar təbəqələrinin rolu təkzibedilməz faktlar və sübutlarla təsdiq edilib.

Qırğınların ilk günlərində Bakının on minlərlə müsəlman sakinləri yalnız hər hansı yolla şəhərdən çıxa bildiklərinə görə labüd ölümdən xilas olmuşlar. Lakin şəhəri tərk etmək özü də təhlükəsiz deyildi. Erməni quldur dəstələri şəhərdən qaçmağa çalışan müsəlmanları tutub saxlayır, qadın, qoca və uşaqlara rəhm etmədən qarət edir və güllələyirdi. Nifrət və tamahkarlıqdan ağlını itirmiş ermənilərin hədəfinə çevrilmiş müsəlmanların həyat və əmlakının xilas edilməsi bir çox hallarda onların yəhudi, rus, polyak, gürcü qonşularının, tanışlarının, və ya sadəcə olaraq təsadüfən yoldan keçən insanların müdaxiləsi nəticəsində mümkün olurdu.

1918-ci il martın 30-da axşam başlanan azərbaycanlı qırğınları faktiki olaraq bir həftə davam etmiş, lakin onun üç günü erməni daşnak dəstələrinin hədsiz azğınlığı, amansızlığı və qəddarlığının xüsusilə kütləvi xarakteri ilə səciyyələnmişdi. Həmin günlər azərbaycanlı qırğınları yalnız şəhərin hüdudları ilə məhdudlaşmırdı. Erməni quldur dəstələri Bakının ətraf kəndlərinə də basqınlar edərək sakinlərin evlərinə soxulur, müsəlmanları qarət edir və qətlə yetirirdilər. 1918-ci ilin martında bir sıra Bakı kəndlərinin - Məhəmmədi, Əhmədli, Balaxanı, Binəqədi, Bibi-Heybət, Hökməli, Zabrat, Sabunçu, Ramana, Xırdalan və s. sakinləri erməni silahlı dəstələrinin vəhşiliklərinin qurbanı olmuşlar.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və Azərbaycan xalqının öz varlığı, milli hüquqları və müstəqilliyi uğrunda ölümdirim mübarizəsinə qalxması ilə ölkədə siyasi vəziyyət kökündən dəyişir. Azərbaycan milli qüvvələri Türkiyənin hərbi yardımı ilə işğal olunmuş ərazilərini və Bakı şəhərini bolşevik-daşnak hakimiyyətindən azad etmək üçün hazırlığa başlayır.

Elə həmin günlər, son dərəcə mürəkkəb və ağır şəraitdə fəaliyyət göstərən gənc Azərbaycan Respublikasının ilk hökumətinin böyük uzaqgörənlik və operativlik nümayiş etdirərək ölkə ərazisində dinc azərbaycanlı əhalisinə qarşı törədilən kütləvi zorakılıq hallarına ən yüksək və ciddi şəkildə münasibət bildirməyi və konkret tədbirlər görməyi vacib sayır. 1918-ci il iyulun 15-də "Avropa müharibəsi başladığı vaxtdan bütün Cənubi Qafqazın hüdudları daxilində müsəlmanlar və onların əmlakı üzərində törədilmiş zorakılıq hallarının araşdırılması üçün, Fövqəladə Təhqiqat Komissiyasının yaradılması" haqqında qərar qəbul edilir. Bu Komissiyanın cəmi bir il ərzində hazırladığı sənədlər 1918-ci il azərbaycanlıların soyqırımı tarixinin salnaməsidir.

**Solmaz Rüstəmova-Tohidi,
tarix elmləri doktoru,
professor**

## “Ermənistan rəhbərliyi məsuliyyətsiz bəyanatlar verməzdən əvvəl əhalisinin aqibətini düşünməlidir”

*Serj Sarkisyanın bəyanatı onun cinayətkar dəstəsinin itirilmiş nüfuzunu bərpa etmək və seçkiqabağı xal toplamaqla reytinqini yüksəltmək məqsədilə daxili auditoriyaya hesablanmış primitiv addımdır.*

Bunu Ermənistanın Prezidenti Serj Sarkisyanın "İsgəndər" operativ-taktiki raketlərindən istifadə edilməsi ilə bağlı əmr verəcəyi barədə bəyanatına cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildiriblər.

"Düşmən tərəf anlamalıdır ki, Azərbaycanın işğal edilmiş əraziləri, o cümlədən Ermənistanda yerləşən bütün hərbi təyinatlı və digər strateji əhəmiyyətli obyektlər ordumuzun son illər ərzində əldə etdiyi ən müasir raket və artilleriya qurğularının daim hədəfindədir.

Ermənistan tərəfindən yarana biləcək istənilən təhdid və hədələrin qarşısı dərhal və qətiyyətlə alınacaq. Görüləcək cəza tədbirləri nəticəsində Ermənistanın məruz qalacağı irimiqyaslı itkilər və dağıntılar qaçılmaz olacaq, onun üçün faciəvi və bərpası mümkün olmayan fəsadlara gətirib çıxaracaq. Odur ki, Ermənistanın rəhbərliyi belə məsuliyyətsiz bəyanatlar verməzdən əvvəl əhalisinin aqibətini düşünməlidir", - deyə nazirliyin məlumatında bildirilir.

### Ovqat

## “Fəxr edirik ki, oğlumuz əsgərdir”

*Vətənimizin hər yerində olduğu kimi, Silahlı Qüvvələrimizdə də bu il xalqımızın ən qədim və əziz bayramlarından olan Novruz əsl el şənliyi kimi qeyd edildi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, hərbi hissələrdə "Açıq qapı" gününün keçiriləcəyi öncədən elan edilmişdi. Martın 20-də xalqımızın əziz bayramı ilə bağlı ordumuzun bütün hərbi hissələrində qapılar qonaqların üzünə taybatay açılmışdı.*



Səhərin erkən çağlarından əsgər valideynləri və yaxınları hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin qarşısında toplaşmağa başladı. Övladları ilə görüşə gələn ata-anaların, doğmaların sevinci üz-gözlərindən oxunurdu. Belə ailələrdən biri də Balakən rayonunun Gərəkli kəndindən gəlmişdi.

Eldar Qarayev yanvarda oğlunu xeyir-dua ilə hərbi xidmətə yola salıb, ona kişi kimi xidmət etməyi tövsiyə edib. Elşənin andiçmə mərasiminə də ailəliklə gəlmişdilər. Artıq balakənli əsgər xidmətinin üç ayını arxada qoyub. Bəs əsgər valideyninin hərbi hissə haqqında təəssüratları necədir?

- Bu gün həm bayramdı, həm də eşitdik ki, Silahlı Qüvvələrimizdə "Açıq qapı" günü keçirilir, - Eldar Qarayev bizimlə söhbətində dedi. - Ona görə ailəliklə gəldik ki, oğlumuzun bayramını təbrik edək. Bu hərbi hissə haqqında, əsgərlərin şəraiti barəsində hərbi andiçmə mərasiminə gələndə artıq xoş təəssürat almışdıq. Burada xidmət etmək üçün yüksək şərait yaradılıb. Əsgərlərin geyimi, yataq yeri, məişət şəraiti, qidalanması bizi bir valideyn kimi valeh etdi. İndi bir daha övladlarımızın şəraiti ilə tanış olduq. Yataq yerlərinə, yeməkxanaya baş çəkdik, gördüklərimiz bizi bir daha sevindirdi.

Bu o deməkdir ki, dövlətimiz öz müdafiəçiləri üçün hər cür şərait yaradıb. Hər şey bir ata kimi ürəyimdəndir. Belə şərait yaratdıqlarına görə dövlətimizin başçısı İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova öz dərin minnətdarlığımı bildirirəm.

- Vətənə xidmət hər birimizin borcudur, - əsgər Elşən Qarayev gülümsünür. - Həm yaxşı şərait yaradılıb bizim üçün, həm də zabitlər bizə hərbi xidmət qaydalarını öyrədirlər. Artıq ixtisas seçimi olub, mən atıcıyam. Avtomat silahının xüsusiyyətlərini bizə öyrədiblər. Atışlarda da iştirak etmişik. Praktik şəkildə bu silahdan atmağı artıq yaxşı bacarıram. Əsgərlər hamısı mehribandır, hamı bir-biri ilə qardaş kimi davranır. Bir ümumi düşmənimiz var, o da Ermənistan dövlətidir.

- Mən də bir ana kimi dövlətimizə minnətdaram, - əsgər anası Aişə Qarayeva dedi. - Çox razıyıq dövlətimizdən, ordumuzun rəhbərliyindən. Əsgərlərə, övladlarımıza çox yaxşı baxırlar.

Deyirlər, əsgərlik kişilik məktəbidir. Elşən də hərbi xidmətə gələndən bəri xeyli dəyişib, ciddiləşib, kişiləşib. Bir sözlə, burada gördüyümüz hər şey bizi sevindirir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

*Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Ölkəmizdə bu istiqamətdə atılan addımlar bu fikri bir daha söyləməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir. Hər zaman zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan ölkəmiz bu ehtiyatlardan səmərəli istifadə etməklə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca hədəf seçib.*

### Nümunəvi xidmət

## “Kursantlara artilleriyanın sirlərini aşılayırıq”



Son illər ölkəmizdə hərbi təhsilin inkişafına da dövlət səviyyəsində ciddi önəm verilir. Baş leytenant Qılınc Əhmədli Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində diqqətimizi çəkən gənc mütəxəssislərdəndir. Gələcək artilleriyaçıların yetişdirilməsində onun da zəhməti var. Gənc zabit hesab edir ki, malik olduqları potensial imkanlarından ölkənin gələcəyi üçün maksimum dərəcədə bəhrələnməkdir. O, öz sahəsi üzrə gələcəyin peşəkar zabitləri ola biləcək kadrların yetişməsində zəhməti olmasından fəxr duyduğunu bildirdi: "Çalışdığım tədris ocağında tədris prosesi son illər daha da təkmilləşib. Yerüstü artilleriya ixtisası üzrə təhsil alan kursantların taqım komandiri vəzifəsindəyəm. Təyin olunduğum gündən çalışıram ki, bilikli və bacarıqlı zabitlərimiz yetişsin. Onlar da görkəmli sərkərdələrimizin, qəhrəmanlarımızın əldə etdiyi uğurları təkrarlaya bilsinlər."

Zabitə görə, artilleriya dəstəyindən sonra döyüş başlayır. "Hər bir artilleriya bölməsinin məqsədi düşmən mövqelərinə mərmi yağdırmaq və öz qüvvələrimizə dəstək olmaqdır. Əgər artilleriya bölməsi alinə silah alıb döyüşərsə, deməli, həmin bölmə uduzub. Motoatıcı bölmələr imkan verməməlidir ki, düşmən qüvvələr artilleriyanın yerləşdiyi mövqelərə qədər irəliləsin. Dərs prosesində kursantlara bütün bunları da aşılayırıq."

Artilleriyanın dəqiq hesablamadan başladığını qeyd edən zabit seçdiyi ixtisasda dəqiqliyə xüsusi önəm verildiyini bildirdi: "Artilleriyaçının əsas meyarı dəqiqlikdir. Düşmənin yerini müəyyənləşdirmək üçün onların yerləşdiyi yerin istər xəritə üzərində, istərsə də atəşi idarəetmə cihazı üzərində koordinatları dəqiq təyin edilməlidir".

Azərbaycan xalqı və dövləti qarşısında öz məsuliyyətini dərk edən, Vətənə və xalqına sadiq olan, Silahlı Qüvvələrin döyüş qabiliyyətinin artırılması sahəsində yorulmadan çalışan gənc zabitə uğurlar arzulayırıq.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

### Suriya ordusu İŞİD-in hava limanını ələ keçirib



Suriya ordusu İŞİD terror-çu qruplaşmasının paytaxtı hesab olunan Rəqqa şəhəri yaxınlığındakı hava limanını geri qaytarıb.

Bu qələbə terrorçuların şəhərdən çıxarılması uğrunda mübarizədə əhəmiyyətli dönüş nöqtəsi hesab edilir. Hökumət qüvvələri şəhər istiqamətində hücumları davam etdirirlər. Lakin şəhərdə yaşayan əhalinin vəziyyəti olduqca gərgindir. Təkcə ötən həftə koalisiya qüvvələrinin hava zərbələri nəticəsində ölkədə 89 mülki vətəndaşın öldüyü bildirilir.

### “Debbi” qasırğası Avstraliyada 35 mindən çox evi işıqsız qoyub



Avstraliya Meteoroloji Bürosunun verdiyi məlumata əsasən, səhər saatlarından etibarən Queensland əyalətinin şimalında tüğyan edən və 35 mindən çox evi işıqsız qoyan "Debbi" qasırğası səbəbindən təxminən 400 məktəb və uşaq bağçası müvəqqəti olaraq bağlanıb.

Bowen, Mackay, Withsunday, Airlie Beach bölgələrində sürəti bəzi hallarda saatda 270 kilometrə çatan qasırğanın gün ərzində davam etməsi gözlənilir.

Avstraliya Müdafiə Nazirliyi, Təcili Yardım Xidməti, Queensland polisi və xəstəxanalar "Debbi" tropik qasırğasından əziyyət çəkən bölgələrə kömək göstərmək üçün hazır vəziyyətə gətirilib. Qasırğanın dağıdıcı təsirinə məruz qalan bölgələrdə aşan ağaclar bir çox yolu bağlayıb. Təbii fəlakətin ölkəyə vurduğu zərər isə təhlükə aradan qalxdıqdan sonra məlum olacaq.

### Ukraynada hərbi vertolyotun qəzaya uğraması nəticəsində 5 nəfər ölüb



Ukraynanın Donbas bölgəsində "Mi-2" vertolyotu qəzaya uğrayıb.

İlkin məlumata əsasən, hadisə vertolyotun elektrik xətti ilə toqquşması nəticəsində baş verib. "Mi-2" vertolyotunun qəzaya uğraması nəticəsində 3-ü ekipaj üzvü, 2-si sərnişin olmaqla 5 nəfər ölüb. Qəza yerinə mütəxəssislər cəlb edilib.

### Bitlisdə 12 PKK-çı məhv edilib



Türkiyənin Bitlis şəhərində PKK terror təşkilatının 12 üzvü məhv edilib, biri isə canlı ələ keçirilib.

Əməliyyatın keçirildiyi 7 bölgədə əhalinin küçəyə çıxmasına qadağa qoyulub.

### Almaniyada çəkisi 100 kiloqram olan qızıl pul oğurlanıb



Almaniyanın paytaxtı Berlində qarətçi muzeydən çəkisi 100 kiloqram və dəyəri milyon dollar həcmində qiymətləndirilən qeyri-adi qızıl əsginası oğurlayıb. Bu barədə Die Welt informasiya agentliyi məlumat yayıb.

Nadir əsginas Berlində Bode muzeyində saxlanılırdı. İlkin məlumata görə, qarətçilər muzeyə pəncərədən nərdivan vasitəsi ilə daxil olublar. Polislər ehtimal edirlər ki, muzeydə baş verən qarət bir neçə nəfər tərəfində təşkil edilib. Oğurlanan əsginasın diametri 53, qalınlığı isə 3 santimetrdir, üz tərəfində kraliça ikinci Elizavetin profil portreti əks olunub. Əsginasın hazırlanmasına sərf edilən qızılın dəyəri 3,7 milyon avroya çatır. Bode muzeyi dünyanın ən böyük numizmatik kolleksiyası ilə tanınır. Burada 540 mindən çox nadir eksponat saxlanılır ki, onların arasında qapalı sikkə seriyasına xüsusi dəyər verilir.

**AZƏRTAC-ın materialları əsasında**

# Qəhrəmanların xatirəsinə yarışlar keçirilib

*Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı Rasim İbrahimovun xatirəsinə həsr olunan basketbol turnirinin bağlanış mərasimi keçirildi. Mərasimdə qaliblərə medal, kubok və fəxri fərmanlar təqdim olundu.*

Bölüklər arasında basketbol turnirinin qalibi 8-ci bölüyün komandası olub. 2-ci yeri ikinci bölüyün idmançıları tutublar. 3-cü yerə isə 4-cü bölüyün kursantları çıxıblar. Kursant Əlibəy Kərimov birinciliyin ən yaxşı oyunçusu adını qazanıb.

C.Naxçıvanski adına Hərbi Liseyin rəisi çıxış edərək qalibləri təbrik etdi. Onlara həm gələcək yarışlarda, həm də təhsillərində uğurlar arzuladı. "Lisey daxilində belə yarışların keçirilməsi təqdirəlayiqdir. Belə yarışlar idmana marağı və mübarizliyi daha da artırır. Bu gün yarışlarda qazanılan uğurlar sizi həyatda daha inamlı olmağa ruhlandırır".



Mərasimdə, həmçinin BUDO üzrə respublika birinciliyində fəal iştirak edərək öz çəki dərəcələrində birinci yerə çıxan kursantlar da fəxri fərmanlarla mükafatlandırıldı.

* * *

C.Naxçıvanski adına Hərbi Liseydə bölüklər arasında Azərbaycanın Milli Qəhrəmanı Cəlil Səfərovun xatirəsinə həsr olunmuş mini futbol turniri də uğurla yekunlaşıb. Birincilikdə 9 komanda iştirak edirdi. Yarışın ilk günü 4-cü bölüklə 7-ci bölüyün futbolçuları üz-üzə gəldilər. İlk qarşılaşma 7-ci bölüyün üstünlüyü ilə başa çatdı. Finalda isə 8-ci bölüyün futbolçuları ilə 9-cu bölüyün idmançıları birincilik uğrunda mübarizə apardılar. Böyük maraqla izlənilən oyunu respublika dərəcəli hakim Elşən Şıxıyev idarə edirdi. Gərgin keçən yarış 9-cu bölüyün qələbəsi ilə başa çatdı. Onlar xatirə turnirinin qalibi adını qazandılar. 2-ci pilləyə 8-ci bölüyün futbolçuları, 3-cü yerə isə 7-ci bölüyün kursantları çıxdılar.

Mükafatlandırma mərasimində Hərbi liseyin rəisi yarışın qaliblərini əldə etdikləri uğurlara görə təbrik etdi.

Polkovnik-leytenant Kamran Nəsibov çıxış edərək yarışın final mərhələsinə qatılmış qonaqları - "Neftçi" futbol komandasının keçmiş futbolçusu, "Şərəf" ordenli İsgəndər Cavadovu, "Neftçi" futbol klubunun veteranı Oktay Abdullayevi, "Spartak" idman cəmiyyətinin sədri Nadir Əliyevi, "Neftçi" futbol komandasının veteranı, beynəlxalq dərəcəli hakim Asim Xuduyevi, Həvəskarlar Futbol Federasiyasının baş katibi, beynəlxalq dərəcəli hakim Füzuli Nəcəfovu, həmçinin Milli futzal komandamızın baş məşqçisini və futbolçularını tədbir iştirakçılarına təqdim etdi.

Qalib komandalara medal, fəxri fərman və kuboku C.Naxçıvanski adına Hərbi Liseyin rəisi, "Neftçi" futbol komandasının keçmiş futbolçusu İsgəndər Cavadov, veteran futbolçular Oktay Abdullayev, Asim Xuduyev, beynəlxalq dərəcəli hakim Füzuli Nəcəfov, "Spartak" idman cəmiyyətinin sədri Nadir Əliyev təqdim etdilər.

Birinciliyin ən yaxşı oyunçusu kursant Elcan Yaqublu, ən yaxşı qapıçı Mirağa Məmmədli, ən məhsuldar oyunçu isə kursant Kamil Bilalov elan olundu.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Hərbi qulluqçularımızın fiziki dözümlülüyü yoxlanılıb

*Əlahiddə Ümumqoşun Orduda hərbi qulluqçuların fiziki hazırlıq səviyyələrinin yüksəldilməsi, döyüş ruhunun formalaşdırılması məqsədi ilə müxtəlif idman yarışları keçirilir. Təbii ki, bütün bunlar da hərbi qulluqçuları daha da ruhlandırır, onlara qələbə əzmi aşılayır. Bu dəfə isə hərbi qulluqçular Naxçıvan Qarnizonu üzrə keçirilən 3 min metr məsafəyə hərbiləşdirilmiş kross birinciliyində qüvvələrini sınayıblar.*

Əvvəlcə Əlahiddə Ümumqoşun Ordunun zabiti mayor Vahid Məmmədov birinciliyin məqsəd və şərtlərini şəxsi heyətin nəzərinə çatdıraraq iştirakçılara uğurlar arzulayıb. İdmançı hərbi qulluqçular yarışmaq üçün öz yerlərini tutduqdan sonra birinciliyə start verilib. Kross birinciliyinin bütün tələblərinə əməl edənlər qalib gəliblər.

Qalib komandalar müəyyən edildikdən sonra fərdi hesabda 1-ci yerə əsgər Azər Nuriyev, 2-ci və 3-cü yerlərə isə müvafiq olaraq müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Nəriman Abdullayev və Tural İbrahimov layiq görülüblər. Qaliblər Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən fəxri fərmanla təltif ediliblər. İlk pillədə qərarlaşan komandalara isə Əlahiddə Ümumqoşun Ordu Komandanlığının diplomları təqdim edilib.

**Leytenant**
**Nəriman NƏCƏFOV**

*Hərbi ənənələr, yeniliklər*

# "Bereq" sahil artilleriyası




Rusiyanın A-222 "Bereq" kompleks gəmiləri, sürətlə hərəkət edən qayıqları və həmçinin hədəfləri məhv etmək üçün təyin edilib. Bu kompleks qarşıya qoyulan bütün döyüş tapşırıqlarını müxtəlif iqlim şəraitində, müxtəlif manevrlərdə yerinə yetirməyə qadirdir. Onun tərkibinə 130 mm-lik artilleriya qurğusu, atəşi idarəetmə sistemi daxildir. Bu tipli maşınların hamısı yüksək keçidliyə malik şassi üzərində quraşdırılıb. Artilleriya qurğusundan eyni vaxtda iki dəniz və yerüstü hədəflərə atəş açılır. Kompleksin müşayiətetmə kanalları operatorla birlikdə üç rejimdə işləyir (əllə tuşlama, yarımavtomat və inersial müşayiətetmə), həmçinin iki avtomatik proqramda (hədəflərin ələ keçirilməsi və avtomatik müşayiət edilməsi) olmaqla. Bu işlərin yerinə yetirilməsi üçün dəqiq "Azimut-uzaqlıq" indikatorundan istifadə edilir. Hansı ki, radiolokasiya informasiyası əks etdirilir. Artilleriya qurğusundan tək-tək yaylım atəşi açılır. Alınan nəticənin komandir tərəfindən sənədləşdirilməsi üçün rəqəmləri dərc edən qurğudan istifadə edilir. Döyüş növbəsini təmin etmək məqsədilə yeddi gün ərzində dizel-aqreqatlarının işləməsi üçün yanacaq çəni, şəxsi heyətin dincəlməsi üçün iki və ya dördyerli kupe, yeməkxana otağı, mətbəx vardır. Yaxın müdafiəni təmin etmək üçün döyüş maşınına pulemyot qurğusu, radiasiya və kimyəvi zəhərlənmə haqqında xəbərdarlıq üçün xüsusi cihaz və yaş paltarların qurudulması üçün elektrik qızdırıcısı, fərdi kimyəvi mühafizə, döyüş dəsti, əleyhqaz, su çənləri və s. daxil edilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan triatlonçusu Avropa kubokunun qalibi olub



Azərbaycan triatlonu cari il ərzində beynəlxalq arenada ilk uğuruna nail olub. Bu uğuru ölkəmizə qazandıran Rostislav Pevtsov İspaniyanın Las-Palmas şəhərində keçirilən Avropa kuboku yarışında birinci yeri tutub. İdmançımız bu qələbə ilə həm də aktivinə reytinq balları yazdırıb.

R.Pevtsov yarışın 1,5 kilometrlik su mərhələsini 18 dəqiqə 40 saniyəyə başa vurub. O, 40 kilometr məsafəyə veloyürüşü 1 saat 9 saniyəyə qət edib. Yarışın sonuncu mərhələsi - 10 kilometr məsafəyə qaçış üzrə isə R.Pevtsov 30 dəqiqə 45 saniyəlik nəticə göstərib. Beləliklə, Azərbaycan idmançısı birinci yeri tutaraq Avropa kubokunun qalibi olub.

## Azərbaycanlı MMA döyüşçüsü: Qələbəmi şəhidlərimizin əziz xatirəsinə həsr edirəm



Azərbaycanın peşəkar kikboksçusu, dünya kəmərinin sahibi Xəyal Əhmədov Almaniyanın Bohum şəhərində qarışıq döyüş növləri (MMA) və K1 versiyaları üzrə beynəlxalq turnirin qalib olub.

Müxtəlif beynəlxalq turnirlərin qalibi olan idmançımız qələbəsini torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda həlak olan qəhrəman Vətən övladlarının xatirəsinə həsr etdiyini bildirib. "Bu qələbəmi Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman qardaş və bacılarımızın əziz ruhlarına həsr edirəm. Uğurlarımızın arxasında onların torpaqlarımız uğrunda axan qanları durur".

Xəyal Əhmədov döyüşdə almaniyalı rəqibi, MMA döyüşçüsü Fabian Vosnitza üzərində təmiz qələbə qazanıb.

Xatırladaq ki, ötən il Almaniyanın Vuppertal şəhərində A1WCC versiya üzrə turnirdə X.Əhmədov erməni rəqibini nakauta salaraq parlaq qələbə qazanmışdı.

## Qol güləşi idman növü üzrə VIII ölkə çempionatında yüzdən çox idmançı iştirak edib

Azərbaycan Memarlıq və İnşaat Universitetinin idman zalında qol güləşi üzrə VIII ölkə birinciliyi keçirilib.

Yarışda 16 regionu, o cümlədən Bakı və Sumqayıt şəhərlərini, Abşeron, Ağdam, İsmayıllı, Qazax, Xaçmaz, Şamaxı və digər rayonları təmsil edən yüzdən çox gənc və yeniyetmə idmançı iştirak edib.

Ölkə birinciliyinin qalibləri diplom və medallarla təltif olunub.

## Atletlərimiz Avropa çempionatında iştirak edəcəklər



Aprelin 2-8-dək Xorvatiyanın Split şəhərində ağır atletika üzrə Avropa çempionatı keçiriləcək.

Yarışda 42 ölkədən 324 atlet iştirak edəcək.

Yığma komandamızın heyətində Məmmədli Məhəmməd (62 kq), İsa Rüstəmov (69 kq), Kamran İsmayılov (85 kq) və Hüseyn İsmayılov (94 kq) körpücük üzərinə çıxacaqlar.

**AZƏRTAC-ın materialları əsasında**


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | kapitan Məhəmməd ƏLİYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 103 Nüsxə 4650 |